# DFF – Indart Holding

| | |
|---|---|
| Ölkə: | Azərbaycan |
| Layihə nömrəsi: | 53479 |
| Biznes sektoru: | İstehsal və xidmətlər |
| Bildiriş növü: | Özəl |
| Ətraf mühit kateqoriyası: | B |
| Təsdiq olunma tarixi: | 13 dekabr 2022-ci il |
| Status: | **Konseptual Təhlildən Keçmişdir, Yekun Müzakirəsi Gözlənilir** |
| LXS-in ingilis dilində buraxılış tarixi: | 12 dekabr 2022-ci il |

*İnformasiyaya çıxış haqqında Direktivin 1.4.2-ci (iii) bölməsinə əsasən: "Direktorlar Şurasının təsdiq etmək səlahiyyətini ötürdüyü Bank rəhbərliyi tərəfindən təsdiq edilmiş layihələrə gəldikdə, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) təsis edilməsi haqqında Sazişin 13-cü (iii) maddəsinə uyğun olaraq, LİS Bankın üzvü olan ölkəyə münasibətdə etirazın olmadığı barədə müvafiq bildirişin təqdim ediləcəyi dövrün əvvəlində açıqlanır".*

## Layihənin Təsviri

Layihə üç hissədən ibarət olan 4,2 milyon ABŞ dollarına qədər yüksək səviyyəli təminatlı kredit nəzərdə tutur: (i) mövcud borcun yenidən maliyyələşdirilməsi üçün 1 milyon ABŞ dolları, (ii) zavodun təkrar emal gücünü və enerji səmərəliliyini artırmaq məqsədi ilə əsaslı xərclər üçün 1,9 milyon ABŞ dolları və (iii) istifadə müddəti bitmiş akkumulyatorların alınması üçün 1,3 milyon dollar ("Layihə").

## Layihənin Məqsədləri

Layihə Şirkətin emal olunmuş qurğuşun istehsalı gücünü illik 7,2 min tondan 17,3 min tona qədər artırılmasını maliyyələşdirəcək, qurğuşun bərpa dərəcəsini artıracaq və Azlead-in ümumi ətraf mühit və enerji səmərəliliyi göstəricilərini yaxşılaşdıracaq. Bundan əlavə, Bankın iştirakı AYİB regionunda KOB-lar üçün ən yaxşı təcrübəni təmsil edən Ətraf Mühit, Sosial və İdarəetmə (ƏMSİ) öhdəliklərini təqdim etmişdir.

## Keçidin Təsiri

GKT (Gözlənilən keçid təsiri) göstəricisi: 80

DFF SME çərçivəsi ilk növbədə KOB-ların yenidən qurulmasına və daha səmərəli və ya peşəkar olmasına dəstək göstərərək "Rəqabətli" keyfiyyəti hədəfləyir. Alt layihələr ikinci dərəcəli məqsəd kimi digər keçid keyfiyyətlərindən hər hansı birini hədəfə ala bilər. Layihə KOB-u əməliyyatlarının dairəvi iqtisadiyyat xarakterini nəzərə alaraq, "Rəqabətli" və "Yaşıl" istiqamətlər üzrə dəstəkləyərək çərçivə hədəflərinə dəstək verir.

## Müştəriyə dair məlumat

Az-LEAD MMC

Azərbaycanda qurulmuş Az-Lead MMC ("Azlead" və ya "Şirkət") istismar müddətini başa vurmuş Qurğuşun-Turşulu Akkumulyatorların (QTA) təkrar emalı yolu ilə qurğuşun istehsalı ilə məşğul olur.

## AYİB Maliyyələşdirmə Xülasəsi

4,200,000.00 ABŞ dolları

## Layihənin Ümumi Dəyəri

4,400,000.00 ABŞ dolları

## Əlavəlilik

Əlavəlik Layihəni strukturlaşdırmaq üçün zəruri olan daha uzun kredit və güzəşt müddətlərindən irəli gəlir, çünki yerli banklar əsasən məhdud ödəniş cədvəlləri ilə daha qısa müddətli kreditlər ayırırlar. Bankın iştirakı milli tənzimləmə tələblərini üstələyən əhəmiyyətli ƏMSİ öhdəlikləri və təkmilləşdirmələrini təqdim edəcək.

## Ekoloji və Sosial Məsələlərin Xülasəsi

B Kateqoriyası (2019 ƏMSS). Qurğuşun batareyalarının təkrar emalı və əritmə zavodunun modernləşdirilməsi və genişləndirilməsi ilə bağlı ekoloji və sosial məsələlər Ətraf Mühit və Sosial Təhlil (ƏMST) əsasında asanlıqla qiymətləndiriləcək və yumşaldılacaq. Bank zavodun ƏMST-ni həyata keçirmək və ƏMSİ sistemləri və hesabatları üzrə strateji məsləhətlər vermək üçün müstəqil məsləhətçi təyin etmişdir. ƏMST nəticəsində şirkətin Ətraf Mühit, Sağlamlıq və Təhlükəsizlik məsələlərini lazımi səviyyədə idarə etdiyi və Bankın Performans Tələblərini (PT) həyata keçirmək qabiliyyətinə malik olduğu təsdiqlənib. Layihə ətraf mühitin əhəmiyyətli dərəcədə yaxşılaşmasına təsir göstərəcək. Layihə Yaşıl İqtisadiyyata Keçid (YİK) yanaşmasına uyğunluğu 76% və eyni zamanda Paris Sazişinə uyğundur ki, bu da əhəmiyyətli

resursların təkrar emalına imkan verir, yəni Aİ dairəvi iqtisadiyyat siyasətlərinə və Aİ Taksonomiyasına uyğundur.

ƏMST təsdiq etdi ki, Layihə atılması nəzərdə tutulan və istifadə müddətini başa vurmuş yerli QTA-ların yenidən təyinatına və istehsalına imkan verir. Kredit vəsaitinin kapital xərclərini maliyyələşdirən hissəsi, yeni torba filtrlərinin izolyasiyası vasitəsilə enerji səmərəliliyini və ətraf mühitin mühafizəsini yaxşılaşdıran mövcud sobaları yenidən təchiz edəcək. Bunlar Aİ tələblərinə uyğun olaraq toz, üzvi birləşmələr və Kükürd oksidləri emissiyalarını azaldacaq və yanacağın mazutdan təbii qaza keçidinə imkan verəcək ki, bu da hər ton qurğuşun istehsalı zamanı Çərçivə 1 - emissiya qənaətinə gətirib çıxaracaq. Şirkət həmçinin emissiyaların monitorinqini aparacaq və təkmilləşdirmə işçilərin sağlamlığı və təhlükəsizliyini yaxşılaşdırmağa imkan verəcək. ƏMST təsdiq edib ki, Şirkətin sağlam İR və İT sistemləri var və qurğuşun zəhərlənməsi halları qeydə alınmayıb.

Layihə, Aİ-nin Korporativ Davamlılıq Hesabatı Direktivi çərçivəsində Aİ hesabat tələblərini uyğunluq məqsədi ilə Bank tərəfindən KOB-lar üçün hazırlanmış ilkin ƏMSİ hesabat təlimatının sınaqdan keçirilməsini əhatə etmişdir. Müstəqil məsləhətçinin qiymətləndirməsi əsasında Şirkət üçün ƏMSİ strategiyası hazırlanmış və beynəlxalq standartlara uyğun dayanıqlı fəaliyyət planları olan Azlead ilə razılaşdırılmışdır. Bu öhdəlikləri yerinə yetirmək üçün ƏMSİ risklərinin və təsirlərinin davamlı olaraq müəyyənləşdirilməsinə imkan verən idarəetmə sistemi yaradılmışdır. Nəticədə, düzgün və davamlı məlumatların toplanmasını təmin edəcək ki, öz növbəsində şablonların da yaradılmasına töhfə verəcək.

ƏMST əsasında Şirkətə Bankın PT-lərinə əməl etməyə imkan verəcək Ətraf Mühit və Sosial Fəaliyyət Planı (ƏMSFP) razılaşdırılıb. Layihənin Qeyri Texniki Xülasəsi (QTX) Şirkət tərəfindən ingilis və azərbaycan dillərində öz internet səhifəsində açıqlanacaq. Bank Şirkət tərəfindən təqdim olunan illik hesabatları nəzərdən keçirməklə Layihənin icrasına nəzarət edəcək.

## Texniki Əməkdaşlıq və Grant Maliyyələşməsi

Layihə Avropa Davamlı İnkişaf Fondundan (ADİF) ilk itki riski sığortasından və layihənin hazırlanması üçün TƏ-dən faydalanır.

- Hüquqi sənədlərin hazırlanmasını təmin etmək üçün Hüquqi Təhlil (38,500 avro);
- Azlead-in ƏMS standartlarına və Bankın PT-lərinə uyğunluğunu qiymətləndirmək üçün Ətraf Mühitin Mühafizəsi üzrə Təhlil, xüsusi ƏMSFP, Maraqlı Tərəflərin İştirakı Planı (MTİP) və QTX-nin hazırlanması (30,000 Avro)

## Şirkətin Əlaqə Məlumatı

Cənab Rauf Rustəmov

r.rauf@indartholding.com

+994502787003

www.azlead.com.az

İnşaatçılar küçəsi № 58, Sumqayıt Sənaye Zonası, Azərbaycan

# LXS-in son yenilənmə tarixi

12 dekabr 2022-ci il

## Keçidin öyrənilməsi

Keçid təsirinin qiymətləndirilməsi ilə bağlı AYİB-in yanaşmasına dair əlavə məlumat buradan əldə oluna bilər.

## Biznes imkanları

Biznes imkanları və ya satınalma üçün sifarişçi şirkətlə əlaqə saxlayın.

AYİB ilə biznes imkanları üçün (satınalma ilə əlaqəli olmayan) aşağıdakı vasitələrdən istifadə edərək əlaqə saxlayın:

Tel: +44 20 7338 7168
E-poçt: projectenquiries@ebrd.com

Dövlət sektoru layihələri ilə bağlı "EBRD Procurement"-a daxil olun:

Tel: +44 20 7338 6794
E-poçt: procurement@ebrd.com

## Ümumi sorğular

Xüsusi sorğular AYİB Sorğu formasından istifadə etməklə hazırlana bilər.

# Ətraf Mühit və Sosial Sahələrə dair Siyasət (ƏMSSS)

ƏMSSS və müvafiq İş Göstəricilərinə dair Tələblər (İGT-lər) AYİB-in özünün "ətraf mühitin mühafizəsi sahəsində düzgün və dayanıqlı inkişaf" strategiyasını təşviq etmək öhdəliyini icra etmək metodlarını müəyyənləşdirir. ƏMSSS-ə və İGT-lərə müştərilərin ictimai məlumat və konsultasiya üzrə dövlət qanunlarının tətbiq olunan tələblərinə cavab vermək, eləcə də maraqlı tərəflərin, xüsusilə də müştərinin və layihənin ətraf mühit və sosial göstəricilər sahəsində narahatlıqlarını və şikayətlərini qəbul etmək və

həllini sürətləndirmək üçün şikayət vermə mexanizminin müəyyən edilməsi üçün xüsusi müddəalar daxildir. Layihənin ətraf mühit və sosial risklərinin və təsirlərinin xarakterinə və miqyasına uyğun olaraq, AYİB əlavə olaraq müştərilərindən layihələrdən yaranan risk və təsirlər barədə müvafiq məlumatları açıqlamağı və ya maraqlı tərəflərlə mənalı konsultasiya aparmağı və onların düşüncələrini nəzərə alıb cavablandırmağı tələb edir. AYİB-in bu sahədə təcrübələri barədə ətraflı məlumat ƏMSSS-də təsvir edilmişdir.

# Düzgünlük və Müvafiqlik

AYİB-in Uyğunluq üzrə Baş Məsul Əməkdaşının Ofisi (OCCO) yaxşı idarəetməni təşviq edir və Bankın bütün əməliyyatlarında ən yaxşı beynəlxalq təcrübələrə uyğun olaraq ən yüksək düzgünlük standartlarının tətbiq edilməsini təmin edir. Layihələrin icrası zamanı qeyri-məqbul düzgünlüyə və ya reputasiya ilə bağlı risklərə yol verməmək üçün Bank bütün müştərilərinin düzgünlük sahəsində hüquqi yoxlanmasını keçirir. Bank hesab edir ki, layihələrin qiymətləndirilməsi və təsdiqlənməsi mərhələlərində problemlərin müəyyən və həll edilməsi Bank əməliyyatlarının düzgünlüyünün təmin olunması üçün ən effektiv metoddur. OCCO bu qabaqlayıcı tədbirlərdə mühüm rol oynayır və eləcə də sərmayə qoyuluşundan sonra layihələrin düzgünlük sahəsində risklərinə nəzarət etməyə kömək edir.

OCCO, həmçinin, AYİB-in maliyyələşdirdiyi layihələrdə fırıldaqçılıq, korrupsiya və səhv davranış iddialarının araşdırılmasına görə cavabdehlik daşıyır. Fırıldaqçılıq və ya korrupsiya halları ilə bağlı şübhəsi olan Bankda və ya Bankla işləyən hər bir şəxs compliance@ebrd.com e-poçt ünvanı ilə Uyğunluq üzrə Baş Məsul Əməkdaşa yazılı şəkildə müraciət etməlidir. Məruzə olunan bütün məsələlər OCCO tərəfindən araşdırılacaq. Bütün yazılı müraciətlər, o cümlədən anonim müraciətlər nəzərdən keçiriləcək. Yazılı müraciət Bankda işlədilən və Bankın çalışdığı ölkələrin istənilən dilində edilə bilər. Məlumatlar dürüstlüklə verilməlidir.

# İnformasiya Əlçatanlığına dair Siyasət (İƏS)

İƏS AYİB-in informasiyanı necə açıqlaması və 1 yanvar 2020-ci il tarixindən etibarən qüvvəyə mindikdən sonra bankın strategiya, siyasət və əməliyyatları sahəsində agahlığı və başa düşülməni artırmaq üçün maraqlı tərəflərlə necə konsultasiyaaparması qaydalarını müəyyən edir. AYİB-in internet saytından hansı məlumatları əldə etmək mümkün olduğunu bilmək üçün zəhmət olmasa İnformasiya Əlçatanlığına dair Siyasət səhifəsini ziyarət edin.

İnformasiya əldə etmək üçün konkret müraciətlər EBRD Müraciət blankı vasitəsilə edilə bilər.

# Layihənin Müstəqil Hesabatlılıq Mexanizmi (LMHM)

Əgər ətraf mühit, sosial sahələr və ya informasiyanın ictimaiyyətə açıqlanması ilə bağlı narahatlıqların Müştəri və ya Bank ilə həll edilməsi cəhdləri uğursuz olarsa (məs.

Müştərinin Layihə səviyyəli şikayət vermə mexanizmi vasitəsilə və ya Bankın rəhbərliyi ilə birbaşa əməkdaşlıq etmək yolu ilə), fiziki şəxslər və təşkilatlar onları narahat edən məsələləri AYİB-in Layihənin Müstəqil Hesabatlılıq Mexanizmi (LMHM) vasitəsilə bildirə bilərlər.
LMHM zərər vermiş və ya zərər verə biləcək kimi qiymətləndirilən Layihə məsələlərini müstəqil şəkildə nəzərdən keçirir. Bu Mexanizmin məqsədi ətraf mühit, sosial sahələr və ya informasiyanın ictimaiyyətə açıqlanması ilə bağlı yaranan problemlərin həlli üçün Layihənin maraqlı tərəfləri arasında dialoqu dəstəkləmək; Bankın özünün Ətraf Mühit və Sosial Sahələr üzrə Siyasətinə və ya İnformasiya Əlçatanlığına dair Siyasətinin Layihə üzrə konkret müddəalarına əməl edib-etmədiyini müəyyən etmək və Bankın gələcəkdə qeyri-uyğunluğa yol verməməsi üçün uyğun olduğu halda bu siyasətlərə mövcud əməl olunmama hallarını həll etməkdir.

Konfidensial onlayn blank, e-poçt, mail və ya telefon vasitəsilə Baxılma üçün Sorğunu necə təqdim etmək mümkün olduğunu müəyyən etmək üçün Layihənin Müstəqil Hesabatlılıq Mexanizminin internet səhifəsini ziyarət etməyiniz xahiş olunur. LMHM, Layihənin Hesabatlılığa dair Siyasət və Göstərişlərinə uyğun olaraq Sizi narahat edən istənilən məsələni müzakirə etmək və ya Sorğularınıza baxılması ilə bağlı yaranan istənilən sualınıza cavab vermək üçün hər zaman xidmətinizdəyik. Sorğu təqdim edənlərin kimliyi xahiş əsasında məxfi saxlanıla bilər.